# Antik yunan fəlsəfəsi və mədəniyyətimizdə milli özünübilimlə bağlı hazırlanmış parodiqmalar

Yaxşı bəllidir ki, Avropada "mən"lə təbiətin, subyektlə obyektin dixatomiyası ilk dəfə Antik Yunanıstanda açılmışdı. Ümumiyyətlə, insanın öz "mən"ini dərk etməsində bir çox aparıcı vektorların çıxış nöqtəsi burada qoyulmuşdu. Sofistlərin müəllimi olan Protoqor söyləyəndə ki, hər şeyin həm olmasının, həm də olmamasının ölçüsü, meyarı insandır, elə bir situasiya yaradırdı ki, insan öz "mən"inin qüdrətini bilirdi. Axı, belə çıxırdı ki, bu mənə nə necə görünürdüsə, bu mən nəyi necə görmək istəyirdisə, o da həqiqət olurdu. Belə çıxırdı ki, dünyada həqiqətin təsisçisi, dünyanın "qanunvericisi" "mən"dir.

Bu "mən"in daxili zənginliyi, bu "mən"dəki ruhun çevikliyi, mühakimə əməliyyatları üçün açdığı diapazon genişliyi, - bu genişliyə Platon ilk dəfə başqası ilə danışığın yanına daxili dialoqu, özü-özünlə danışmağı qoymaqla da çıxmışdı (2) - imkan verirdi ki, sofist rəqibini məhkəmədə, meydan "tok şoularında" "yesin". Beləcə, "mən və qeyri-mən" qarşıdurumu yaradılırdı, sonra isə bu qarşıdurumda məhz çarpışma modelinə üstünlük verilirdi: insan öz "mən"ini elə ucalıqlara, zənginliklərə qaldırırdı ki, dünyanı istədiyi kimi fırlada bilirdi, nəyisə bir dəfə yaxşı, gözəl, o biri dəfə, - ziddiyyətdən utanmadan, - pis, eybəcər kimi sübut edə bilirdi. Eyni adamı gərəkəndə oğru, gərəkəndə təmiz adam kimi müdafiə edirdi.

Biz ona görə bu qarşıdurumda Sofistlərin situasiyanı aqressivliyə, çarpışmaya çevirməsini vurğulayırıq ki, sonralar Avropa mədəniyyətinin təbiətə münasibətinin dağıdıcı aqressivlik üstündə qurulması haqqında söylənilənlərin antik kökü açılır.

Qədim Yunanıstanda insan "mən"inin yerdə qalan dünyadan kəskin ayrılmasında Sofistlərdən sonra ciddi addımı Sokrat atmışdı. Özü də aydındır ki, bu ayırmadan sonra "mən" üçün önəmli problem çıxmışdı: necə etməli ki, bu dünyada uğurlu taktika və strategiya ilə davranmaq olsun?

Sokratın fəlsəfəsi bu sualın cavabında Avropa insanını uğurlu etmək üçün xüsusi strategiya hazırlamışdı. O strategiya onun məşhur formulasından qaynaqlanırdı: "özünü bil" və ya "özün özünü dərk et". Sokrata görə, insan ayrı düşdüyü qıraq dünyanı düzgün anlayışlarda, məfhumlarda özünə qaytarmalıdır ki, hərəkətlərinin kəsəri olsun. İnsanda düzgün anlayışların, məfhumların olması təbiətin və başqalarının insanın içində düzgün görünməsidir. Bu isə yerdə qalan dünyadan ayrı düşmüş "mən"in bu ayrılığı aradan götürmək cəhdidir (təbiətə Hegelin arzuladığı qayıdışdır). Yəni öncə "mən" çevrəsindən fərqini biləndə çevrəsi ona qorxulu, düşmən mühit kimi açılır. Ancaq bu vəziyyət uzun müddət qala bilməz. Ona görə də "mən" din, sənət vasitəsi ilə təbiəti mənimsəyir və beləcə, iki ayrılmış tərəfin yeni keyfiyyətdə birliyi baş verir.

Sokrat bu prosesə onu artırmışdı ki, birliyi bərpa etməyin ən güclü, kəsərli vasitəsi özünü dərk etmək və bu dərkin metodu olan rasionallığı qazanmaqdır. Yəni insan özünə səyahət edir ki, ağıl, düşüncə ilə özündən anlayışlar tapıb düzəltsin. "Mən" məhz bu anlayışları "düzəldəndə", əgər döyüş, müharibə terminlərində danışsaq, yaxşı strateq olur.

Sokratın fəlsəfi baxışlarının nə dərəcədə müharibə, savaş modelinə söykənməsi və deməli, "mən"i ətraf mühitlə gərginlikdə, konfliktdə uğurlu etmək istəyi onun davamçılarının fəlsəfələrində yaxşı açıldı. Sokratçılar olan Kiniklər də, Kirenaiklər də insanın "mən"ini ağır, aqressiv mühitdən xilas etməyin yollarını axtardılar və bu zaman müəllimləri kimi, həm "necəlik"lə bağlı anlayışların, həm də "necəliklə" bağlı hissiyyatın, rasionallığın müdrik insana gərək olması üzərində işlədilər. Beləcə, anlayışlar qatında Kiniklərdə "avtorkiya" metodu formalaşdı. Avtorkiya şüuru, "mən"i ətraf mühitin ağır təsirindən xilas etmək üçün elə bir zənginlik yolunu təklif etdi ki, bu şüurun, bu "mən"in özündən qıraqdakılara gərəyi, ehtiyacı qalmasın. Kiniklərin çirkinlik estetikası, dünyanın içində özlərini cürbəcür ağrı və pisliklərə düçar etməsi həm bu avtorkiyanı qazanmaq, həm də qazanılmış avtorkiyanı təsdiq etmək üçün idi: yəni özünün ətraf dünyadan asılı olmadığını həm özünə, həm də başqalarına göstərmək, sübut etmək üçün idi (3). Deyiləni bir anekdotik olay yaxşı açır. Məşhur kinik Sinoplu Diogen heykəllərin qabağında əl uzadıb dilənərmiş. Soruşanda ki niyə belə edirsən, deyərmiş: özümü "yoxa" (yəni nəzir verməkdən imtinaya) öyrədirəm (4).

Beləcə, Kiniklər özlərini ağır həyat rejiminə salırdılar ki, əziyyətə alışsınlar, tamaha qalib gəlsinlər və nəticədə ətraf dünyadan güclü olsunlar. Göründüyü kimi, artıq, Kiniklər "mən"in dünya ilə ayrılmışlığında ona çalışırdılar ki, əsl "savaş", "güləş", "çarpışma" situasiyasında olduğu kimi bu dünyaya qalib gəlsinlər, ya da bu dünya qarşısında diz çökməsinlər.

Sokratçılar cərgəsində Kiniklərdən sonra Kirenaiklər durur. Onların başçısı Aristipp deyərmiş ki, keflərin, həzzlərin ağası onları itələməyi bacaran deyil, onları yaxın buraxıb onların qulu olmayandır. Ona görə də Kiniklərin

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

avtorkiyasına Kirenaiklər adiaforini (bütün həyat duyğularına həssassızlığı, biganəliyi) qoydular. Bunun yolu isə pis təsirləri vecsiz bir xoşnutluqla qarşılamaq idi. Deyirlər ki, bir dəfə hökmdar Sirakuzlu Dionisi Aristippin üzünə tüpürür. Ancaq o, pərt olmur, söyləyir ki, balıqçı balıq tutanda duzlu su sıçrantılarına dözmürmü?! Bəs mən niyə böyük balıq tutmaq üçün çaxır qarışıq su sıçrantısına dözməyim?! (5).

Göründüyü kimi, kirenaik də "mən"ində elə bir güc tapırdı ki, uğurlu aforizm, analogiya və s. ilə, - onları da axı, özünün daxili zənginliyindən çıxarırdı, - mənfi, pis təsirləri ya neytrallaşdırsın, ya da ki, guya həzz mənbəyinə çevirsin. Beləcə, Sokratın "özün özünü dərk et!" çağırışı Kirenaiklərin də dadına çatırdı.

İrəlidə dedik ki, özünüdərk məsələsində "mən"in "qeyri-mən"dən, "başqasından" və ya daha geniş götürsək, təbiətdən ayrıdılmasında Antik yunan fəlsəfəsinin çox böyük rolu olub. Özünüdərk problemində və ya belə deyək, şüurun özü-özünü hədəfə almasında, özü-özünü düşünməsində bir qaçılmazlıq var: şüur özünü düşünmək üçün özünü müəyyənləşdirməlidir, yəni özünə nəsə sərhədlər qoyub "buralaracan mənəm, buralardan o yana mən deyiləm" diskursu ilə davranmalıdır. Artıq qədim yunan fəlsəfəsi bilirdi ki, düşünmək nələri isə ayırmaq, nələri isə birləşdirməkdir. Düşünmək eyniyyət və fərqlərlə əməliyyat aparmaqdır. Düşünürsən, "Sokrat insandır" və bu zaman Sokratı insanlarla eyniləşdirirsən. Ancaq elə bununla da Sokratı insan olmayan canlılardan ayırırsan. Bax, elə buna görə də Sofistlər, Sokrat, Sokratçılar insanın "mən"ini çevrəsindən, başqalarından, xüsusilə, təbiətdən ayırmışdılar ki, bu məni düşünmək olsun. Göstərdiyimiz özünüdərkin Avropada ilk addımları idi. Ancaq dediyimiz kimi, bu ilkin addımlarda özünüdərkə "uğurla savaşmaq" pafosu qatılmışdı. Özünübilim "mən"in müdrik və müdriklik sayəsində güclü olması üçün lazım idi. "Mən" əldə etdiyi güclə ya təbiətdən gələn aqressivliyə, məsələn, ölümə, qıtlığa sinə gərməliydi, ya da mədəniyyətin sınaqlarından, məsələn, Sirakuzlu Dionisi kimilərinin təhqirindən sarsılmadan çıxmalıydı.

Beləcə, özünüdərkdə "mən"in "qeyri-məndən" ayrıdılması Əski Yunanıstanda müxtəlif fəlsəfi cərəyanlar törətdi. Özü də bu cərəyanların sırasına Epikurçuluq, Stoisizm, Skeptisizm də düşdü. Onların hər biri özünüdərki insan üçün önəmli situasiya edirdi və hər biri də bu özünüdərk, özünübilim prosesində insanın "mən"ini güclü etmək üçün öz arqumentlərini tapırdı. Epikurçular özünüdərki ona yönəldirdilər ki, "mən"in tamahı dayansın, "mən" azla (çörək və su ilə) yetərlənsin. Skeptiklər Sofistlərin ənənəsini davam etdirərək təbiət olaylarından "doğrudan da olmuşluq" əlamətini alırdılar və beləcə, təbiətdən, ətraf dünyadan gələn qorxuların zəhmini şübhə ilə, daha düzü, susqunluqla dağıdırdılar. Skeptisizm dünya üstünə mühakimə söyləyən fəlsəfələrdən fərqli olaraq susmağa üstünlük verirdi və bu susqunluqda başqalarından güclü olmağa çalışırdı (6).

Özünübilim məsələsini qoyan, bunun üçün "mən"i "qeyri-mən"dən ayıran Antik yunan fəlsəfəsi addım-addım müdrik, müdriklik ideyasını da dolğunlaşdırmış, törədiciləşdirmişdi. Müdrik kimdir? Müdrik filosof da ola bilər, filosof olmaya da bilər. Müdrik, - türklərdə ona bilgə deyirdilər, - biliyi, təcrübəni qarşıya çıxan çətin vəziyyətlərə cəlb edən, biliyin, mədəniyyətdəki bilgilərin, informasiyaların sayəsində bu çətinliklərin öhdəsindən gələn adamdır. Yunan fəlsəfəsi Sofistlərin, Sokratın, Kiniklərin, Kirenaiklərin, Epikur və Epikurçuların, Skeptiklərin sayəsində müdrikliyi çox müxtəlif ipostaslardan, mahiyyət təzahürlərindən aça bilmişdi. Ancaq bütün bu cərəyanların sırasında Afinadakı məbədin portiki (stoyası) yanında çıxışlar etmiş Zenona görə "Stoisizm" adını almış, - Zenon bu məktəbin yaradıcısı idi, - fəlsəfi təliminin yeri xüsusi seçilir. Bu seçilmişlik onunla bağlıdır ki, "qeyri-mən" tale, kosmosun düzümü ideyaları ilə uca tutulurdu. Onların inamına görə, Kosmosa, taleyin oyununa nəsə düşmən mühitin acılarına dözürmüşsən kimi dözmək lazım deyil. Onların inamına görə, Kosmosa, taleyin oyununa çox sayğılı, urvatlı dünyaya heyran olaraq layiq olmaq gərəkdir.

Stoiklərin gözündə Kosmos və fatum özlərinə görə xüsusi bədii əsərlər idi. Onun üçün də Stoya müdriki onlara yüksək sayğısını saxlayaraq dözməli, hətta tabe olmalı idi (Kiniklər, Kirenaiklər, sonrakı xristian zahidləri Stoiklərdən fərqli olaraq Kosmosu, ətraf dünyanı uca tutmurdular, tərsinə, bu dünya olaylarını yoldan çıxaran, tələ quran saydıqları üçün öhdəsindən gəlməyin "texnikasını" arayırdılar). Stoiklər isə ataraksiya ("tükü də tərpənməmək"), apatiya (duyğusuzluq) idealını müdrikliyin şərti edirdilər ki, müdrik kəs dünyaya nifrət etmədən, dünyadan incimədən dünyaya hiddətsiz, şikayətsiz dözsün (7).

Görmək çətin deyil ki, biz indiyənəcən özünüdərklə bağlı Əski yunan fəlsəfəsinin və psixologiyasının aşkar etdiklərini həm nəzəri planda aydınlaşdırdıq, həm də aydınlaşdırdıqlarımızın kültürdəki sonuclarını izlədik. Ona görə Sofistlərin, Sokratçıların, Epikurçuların, Stoiklərin fəlsəfi planda əldə etdiklərinin kültür sonuclarını da vurğulayırıq ki, bu əldə olunanlar mədəniyyətdə davranış tiplərini yaradırdı, mənəvi mədəniyyətin təbiətlə, toplumdakı mühitlə, toplumdakı başqaları ilə konfliktlərini problem kimi ortaya çıxarırdı. Bu isə öz növbəsində mənəvi mədəniyyətin adaptivlik vəzifələrinin problem kimi ortaya çıxmasına tarixi presedentlər verirdi. Antik Yunanıstanda filosoflar insanın "mən"ini, özünüdərkini fəlsəfi probleme çevirəndə bundan hələ milli özünüdərkə çıxa bilməzdilər, çünki o zaman, sadəcə, millət ideyası yox idi. Bertarn Rasselə görə, əski çağlarda millət ideyasına oxşayan nəsə vardısa, o da yəhudilərdə idi. O, "Fəlsəfə tarixi" kitabında yazır ki, Antik dünyada yəhudilər yeganə məğrur xalq idi. Bütün başqaları isə, işğal olandan sonra yadellilərə həm daxilən, həm zahirən tabe olurdular (8).

İsrail oğullarının assuriyalıları, misirliləri, yunanları, romalıları əsəbləşdirən və axırda Erets İsraildən qovulub dünyaya səpələnmələri ilə sonuclanan bu "dikbaşlığı" onunla bağlı idi ki, onlar özlərini həzrət İbrahimin sayəsində Tanrı tərəfindən seçilmişlər sayırdılar. İudaizmə görə, Yahva məhz onları üstün tutaraq dünyanın mərkəzi etmişdi. Bax, bütün bu inanışlar yəhudilərə elə bir qürur, başqalarından elə bir üstünlük duyğusu vermişdi ki, assuriyalıların, romalıların qılıncı qarşısında cismən boyun əyəndə belə, onların mənən boyun əymələrini mümkünsüz etmişdi. Dünya və tarix hər şeyi pozan, dağıdan elə proseslərdir ki, yüzillər keçəndən sonra yəhudilərin də mənəviyyatında öz dağıdıcı təsirlərini vurmalı idi. Ona görə yəhudilər bir zamanlar Babil mədəniyyətinin təsiri altında dini adətlərini itirməyə başladılar və bu zaman yalnız peyğəmbər Yezdranın çılğın, sərt moizələri, cəzaları İudaizmi itməyə qoymadı.



Zaman keçdi, dünya, tarix prosesləri yenə yəhudilərə öz dağıdıcı təsirini göstərdi və bu xalqda ellinləşmə getdi. Nəticədə Yerusəlimdə uşaqlar üçün gimnaziyalar açıldı, yəhudilər başladılar yunanca danışmağa və bu dəfə yalnız Makkavey qardaşlarının sayəsində yəhudiliyin silinməsinin qarşısı alındı.

Bunu Rassel belə yazır: Selevkid çarlarından olan 4-cü Antiox bütün ölkəsini ellinləşdirmək istəyirdi. Ona görə də Yerusəlimdə gimnaziya açmış və yəhudilər arasında idmanla məşğul olmağı dəb salmışdı. Yəhudilər yunan papağı qoyurdular. yunan paltarı geyirdilər.

Ellinləşdirmə siyasətində 4-cü Antioxa yəhudi Yason kömək edirdi, ona görə də çar axırda bu adamı İsrailin Baş ruhanisi etdi.

Antioxun assimilyasiya siyasətinə qarşı Xasidimlər (müqəddəslər) partiyası ayağa qalxdı. Antiox Misirlə vuruşanda isə yəhudilər xalq olaraq ona qarşı qiyam qaldırdılar. Antiox qiyamçıları cəzalandırmaq üçün Yerusəlim məbədindən müqəddəs qabları götürdü, ora Yahvanın təsviri kimi Zevsin şəklini qoydu, sünnət etmək adətini durdurdu və bütün bu yeni durum Yerusəlimdə qələbə çaldı. Ancaq kəndlər və çevrədəki yəhudilər bütün bu yenilikləri götürmədilər. Antiox nə qədər sünnətli uşaqları öldürsə də, şənbəni keçirməyə qoymasa da yəhudilərlə bacarmadı (9). Makkaveylərin Birinci kitabında bu olaylar öz əksini tapıb.

Ancaq yəhudilərin özlərini qorumaq yolunda bütün mücadilələrinə baxmayaraq yaxşı bəllidir ki, onlar nə dillərinin itməsinin qarşısını ala bildilər, nə də başqa dinlərin, başqa adətlərin assimiliyasiyaedici təsirindən qurtula bildilər. Ən qəribəsi isə bu oldu ki, öz dillərini, hətta bir xeyli mədəni adətlərini, antropoloji eyniliklərini itirmədi, dəyişməli olan yəhudilər tarixin səhnəsindən silinmədilər. Nə qədər əcdadlarından uzaqlaşsalar da yeni forma, yeni biçimlərdə, yeni transformasiyalarda yəhudiliklərini saxladılar (10). Görünür, bunda böyük rolu yəhudiliyin dini-etnik qüruru həlledici rol oynadı. Ukraynada, İspaniyada, Almaniyada, Fransada, Rusiyada yaşayan yəhudilər üzdə nə qədər mütiliyi, sözəbaxanlığı, buyruq qulu olduqlarını göstərsələr də içdə öz qürurlarını saxlamışdılar. Bax, bu qürur yüzillərlə alçalmışlıqda dolanan yəhudiliyi zorunlayırdı ki, elmdə, musiqidə, təbabətdə, iqtisadiyyatda yüksək uğur üçün öz üzərində amansızcasına işləsin, qüruru ilə gerçək durumu arasında olan məsafəni azaltsın. Bu faktda biz milli öünüdərkin önəmli nəticələrini görürük.

Əslində bu tip faktları, məsələn, yunanların, romalıların özlərini barbarlardan üstün tutmasını və bunun kulturoloji sonuclarını, əski İranlıların dillərinə heyranlığını, Ortaçağ türklərinin "tadzikə" yuxarıdan aşağı baxıb "türk" sözünü gözəlliklə sinonimləşdirməsini sonra araşdıracağıq. Ancaq hələlik deyək ki, bütün bu cür faktlar Bertarn Rasselin kollektiv və ya etnik qürur məsələsində yəhudiləri əlahiddələşdirməsini bir az şübhə altına salır. Bəlkə də bütün bunlar belə dəqiqləşdirmə aparmağı tələb edir: başqa qədim xalqlar öz ordularına, öz mədəni nailiyyətlərinə görə qürur keçirirdilər, yəhudilərdə isə qürur vertikaldan, sakral dünyadan gəlirdi.

İndi yenidən əski Yunanıstanda fəlsəfənin sayəsində ortaya çıxmış və Sokratın "özün özünü dərk et" diskursunda ifadəli düsturunu tapmış özünübilim məsələsinə və bu məsələnin kulturologiya üçün metodoloji önəminə qayıtsaq, deməliyik ki, özünüdərk məsələsini qoymuş və onun düşünülməsinə cəlb olunmuş yunanlar, sonra isə romalılar mədəniyyət üçün önəmli olan adaptivlik və həzz prinsipi ilə reallıq duyğusunun uzlaşdırılması problemi üçün epistomoloji vasitələrin bir qismini hazırlamış oldular. Onların sayəsində Qərb dünyası Təbiət və Mədəniyyət dixatomiyasına çıxdı. Məsələ dixatomiya kimi ortaya çıxanda təbii ki, onlar arasında yaxınlaşma/uzaqlaşma, barışma/savaşma variantları fəlsəfəyə və mədəniyyətə çoxlu imkanlar gətirdi. İnsan bir variantda Təbiətlə Mədəniyyətin yarışını təşkil etdi. Bu yarış qaçılmaz olaraq ona gətirdi ki, Təbiətin, Kosmosun sonsuzluğu postulaşdırıldığı kimi, insanın daxili dünyasının sonsuzluğu da postulaşdırıldı. Buradan da makrokosmla mikrokosmun analogiyasına gəlib çıxıldı. Yeri gəlmişkən, ilk dəfə Demokrit demişdi ki, "insan mikrokosmdur (11). Buradan isə gələcək üçün milli özünüdərkin psixologiyası və kulturologiyası ilə bağlı paradiqma doğdu: milli özünüdərk mikrokosma səyahətdir və bu səyahət makrokosma səyahət analoqunda ola bilər. Əlavə edək ki, problemin və anlayış-metaforanın sonrakı açıqlamalarında aydın oldu ki, mikrokosmda "mikro" kiçikliyi bildirsə də, əslində, insanlıq bir paradoksa çıxır. İki yönümdə sonsuzluq var, fiziki, həndəsi sonsuzluq, ruh aləminin sonsuzluğu. Aydın oldu ki, bu iki sonsuzluq müxtəlif olsalar da, belə demək mümkündürsə, bir "boydadırlar". Deməli, Mədəniyyətin Təbiətlə ilişgidə adaptivlik funksiyasını yerinə yetirməyə gücü çatar, ona görə ki, mədəniyyətin daşıyıcısı olan insanın da iç dünyası Kosmos qədər sonsuzdur. Bu situasiyada mədəniyyət fəaliyyətində önəmli yeri fəlsəfəni, dini, sənəti köməyə çağıraraq insanın daxili, ruhani sonsuzluğuna "qapıları" açmaq tutdu. Sokratın "özün özünü dərk et" diskursu, bu diskursun xristian və islam variantı olan "özünü dərk et ki, Tanrını dərk edəsən" aforizmi, Nitsşenin ideyasından çıxış etsək, Antik mədəniyyətdə aydınlığı, müəyyənliyi, rasionallığı simvolizə edən Apollon başlanğıcına qarşı irrasio-

nallığı, ekstazı, çılğınlığı, qızğınlığı simvolizə edən Dionisi başlanğıcını qoydu. Dionisi başlanğıcının qoyulması isə insanın daxili sonsuzluğuna "qapıları" açmaq üçün idi. Aristotelin psixologiya elminin banisi kimi ruh, nəfs məsələsini ayrıca araşdırmanın hədəfi etməsi insanın daxili aləminin rasional yolla mənimsənilməsini daha da gücləndirdi. Plotinin insanın ruhunu Dünya ruhu ilə bağlaması və beləcə, fərdi ruhdan Kosmik ruha keçid məsələsini qoyması (12) gələcək özünüdərk üçün ruhla bağlı ənginliklər imkanını yaratdı. Bu ideyalardan sonra milli mentaliteti mikrokosm kimi, sonsuz dərinlik kimi postulaşdırmaq daha çətin deyildi.

Bu dediklərimiz Təbiət-Mədəniyyət dixatomiyasına aiddir və sözsüz, daha çox təbii qəzalar, fəlakətlər qarşısında Mədəniyyəti (insanı) sonsuzluq imkanları sayəsində müqavimətli, hətta güclü etmək məqsədi daşıyır. XX-XXI yüzillərdə Təbiəti Mədəniyyət fəlakətlərindən qorumaq üçün yaranmış ekoloji hərəkatlar və ekoloji nəzəriyyələr göstərdi ki, antik insan təlimində Təbiətə müqavimət üstündə qurulmuş nə vardısa, heç də uğursuz, nəticəsiz olmadı. Əski çağlardan Təbiətin təhlükəsinə qarşı savaşa çıxan Qərb insanı axırda Təbiətin özünə təhlükə oldu.

Antik mədəniyyətdə özünüdərk işini motivləşdirən başqa dixatomiya "mən - başqalarının təhlükəsi" idi. Bu situasiya da irəlidə dediyimiz kimi, savaş modelinə söykənirdi və məqsədi insanı insanların, mədəniyyətin öz təhlükələri qarşısında güclü etmək idi. Bu dixatomiyanın da elm və mədəniyyət üçün öz gələcəyi vardı: bütün konfliktologiya nəzəriyyələri, bütün dövlət və qanunculluq proyektləri bu dixatomiyadan doğmuşdu.

Antik Yunanıstanda insanın özünüdərki ilə bağlı fəlsəfi təlimlər "mən - başqaları", "biz - onlar" dixatomiyasını da gücləndirdi. Sonralar bu qarşıdurumlar, oppozisiyalar Feyerbax üçün, Martin Buber üçün, fransız filosofu Derrida üçün önəmli konstruksiyaya çevrildi (13). Yeri gəlmişkən, Derridadan bir diskurs: identiklik, yəni özünü özün kimi bilmək başqasını göz önündə saxlamaqla sıx bağlıdır. Başqası qorxu törədəndir. Başqası həm də farmakondur, yəni zəhərləyə biləcək özgədir (14).

Əski Yunanıstanda özünüdərk fəlsəfəsinin, psixologiyasının "başqasını", "qeyri-mən"i və ya "onları" da önəmli korrelyat kimi "mən"in orbitinə gətirməsi təkcə Feyerbax, Derrida kimi filosofların insan konsepsiyasına konstruksiya verməmişdi. Bu fəlsəfə bizim məqaləyə verdiyimiz ada tam uyğun olaraq milli özünüdərkə də metodoloji prinsip gətirmişdi. Freyd millətlə bağlı Empedokla gedib çıxan bir ideyanı söyləmişdi. Bu yunan filosofu Kosmosu Eros (Sevgi) və Polemos (Nifrət) qarşıdurumu əsasında modelləşdirərək söyləmişdi ki, Eros ortaya çıxan, işə düşən yerdə birləşmələr, vəhdətə gəlmələr baş verir. Buna qarşı isə Nifrət durur. Dünyada Eros tam qələbə çalanda tam harmoniya yaranır, ancaq Kosmosda Erosun heç vaxt birdəfəlik qələbəsi olmur. Eros və Polemosun əvəzlənmə ritmi ona gətirir ki, birinin hər qələbəsindən sonra o birisi işə düşərək birincinin nailiyyətlərini dağıdır (15). Empedoklun bu ideyası ilə Freydin indi haqqında danışacağımız ideyası çox maraqlı şəkildə səsləşir. Avstriya psixoloqu millətlərin ilişgiləri ilə bağlı Empedoklun Erosunu saxlayır, Polemosun (Nifrətin) yerinə isə başqa yunan terminini, ölüm anlamını verən Tanatosu qoyur və onların bir-birinə korrelyatlığını açıqlamaq üçün söyləyir ki, qonşu şəhərlər bir-birinə pis baxırlar, Şimal və Cənub almanları, ingilislərlə şotlandlar bir-birini sevmirlər. Böyük fərqlərlə ayrılan xalqların, məsələn, qallarla germanların, ariyalılarla samilərin bir-birinə nifrətini başa düşmək olar. Ancaq xırda fərqlərlə bir-birindən ayrılan xalqların, sosial qurumların qarşılıqlı nifrətini anlamaq xeyli çətindir (16). Daha sonra Freyd bir millətdə Erosun olması üçün onun başqasına düşmən kəsilməsini belə izah edir ki, Eros üçün Tanatos, Tanatos üçünsə Eros gərəkdir (bu fikir onun sevginin ambivalentliyi, yəni özündə gizlin nifrət daşıması fikri ilə də səsləşir). Freydə görə başqasına nifrət qrupdaxili sevgini gücləndirdiyi üçün də millətlər qonşularını sevmirlər. Avstriya aliminin bu konsepsiyası ibtidai toplumlarda, xüsusilə qəbilələrdə qan düşmənçiliyini pozitiv-konstruktiv yöndən açır. İndi aydın olur ki, qəbilələr tökülmüş qanın əvəzini çıxmaq üçün başqa qəbilə ilə düşmənçilik edəndə çağdaş mədəniyyət sistemində nə qədər nonsens kimi görünsə də əslində bu düşmənçilik qəbilə daxilində Erosu artırırdı və qəbiləni bir-birindən asanca qopan insanların, fərdlərin birliyinə çevrilməyə qoymurdu.

Antik Yunanıstanda özünüdərk problemləri ilə qayğılanmış və bu kontekstdə həzz məsələsini saf-çürük etmiş təlimlərin bir kulturoloji perspektivini də açmaq istərdik. Xüsusilə ona görə ki, bu perspektiv də Ziqmund Freydlə bağlıdır. Biz, artıq Kirenaiklərdən, Epikurçulardan gördük ki, onlar insanın həzz duyğusunun qulu olmaması üçün cürbəcür vasitələr axtarırdılar. Kirenaiklər həzdən asılılığı onunla öldürürdülər ki, adi insanlara ləzzət verən nəsnələri özlərinə yasaqlayırdılar və həzdən yalnız başqalarını incidən, alçaldan hadisələrə qalib gəlmək üçün istifadə edirdilər. Yəni özlərini elə göstərirdilər ki, və ya özlərini inandırırdılar ki, başqasına əzab verəcək filan davranış (məsələn, sərxoş tiranın əmri ilə qadın kimi geyinib oynamaq) onlara ləzzət verir.

Epikurun formulası isə "çörək və su" idi. Yəni bu filosof göstərirdi ki, həzsiz yaşamaq olmaz. Ona görə də həzz duyğusunu özündə ləğv etmək lazım deyil. Sadəcə, elə etmək gərəkdir ki, bu həzz əzabların gəlməsinə səbəb olmasın. Doğrudan da sən yalnız bahalı, çətin tapılan şeylərdən həzz alırsansa, onların olmaması, təbii, tez-tez yer alacaq və bundan da tez-tez əzaba düşəcəksən. Yeganə çıxış yolu azla yetərlənmək, yəni dəmdəstgahlı məclisə can atmaq əvəzinə bir parça çörək və sudan ləzzət alıb onlarla yetərlənməkdir.

Bax, Antik fəlsəfənin bu ideyaları Ziqmund Freydin kulturoloji təlimində çox maraqlı müddəalara çevrildi. O, fəlsəfi-psxoloji ənənəyə söykənərək insan üçün həzz



prinsipinin önəmini açandan sonra bildirməli oldu ki, yalnız ilə davranan adamlar ən çox uğursuzluqlara, əzablara uğrayırlar. Səbəb odur ki, insanların çoxunun ləzzət acgözlüyü doymazdır, eyni zamanda həzz almaq istəyənlərin sayına baxanda həzz verən şeylərin böyük qıtlığı var və o hamıya çata bilməz. Ona görə də canlı orqanizm, insan həzz prinsipini gerçəklik prinsipi ilə əvəz etməli olur. Uyğun şəkildə həmin proses kültürdə də gedir. Mədəniyyətlərdə həzz prinsipi özünü göstərdiyi kimi reallıq prinsipi də özünü göstərməyə başlayır (17).

Freydin bu fikrini milli özünüdərk problemi üzrə gəlişdirsək, deyə bilərik ki, hər hansı millət özünü bilməklə ən azı ona görə ciddi məşğul olmalıdır ki, məhz, beləcə, bəyəndiklərini kodifikasiya edə bilər və sonra da bu bəyəndiklərindən milli təhlükə törədənləri təhlükəsizləşdirmək üçün gerçəklik prinsiplərində nələrisə tapa bilər. Üzeyir bəy söyləyəndə ki, müsəlmana ağıl muşğulat üçün verilib, bununla praktiki sonucu olmayan düşüncə və söhbətdən azərbaycanlının həzz almasını o, pisə çıxarırdı və təbii ki, beləcə Avropa praktisizmini ideal kimi müsəlman ağlına alternativ edirdi.

Millət nələrdən ləzzət alır, nələrə enerji, resurs xərcləyir? Bu suallar, sözsüz ki, milli özünüdərkin ciddi sorularıdır və onlara cavab axtarmaq islahat proqramlarını aktual edir. Çünki aydın ediləndə ki, məsələn, azərbaycanlılar israfçılıqdan həzz alırlar, bu "xasiyyəti" tərgitmək üçün tədbirlər paketi irəli sürülsə, o, islahat proqramı olur (18).

Göründüyü kimi, artıq Antik fəlsəfədə, psixologiyada və mədəniyyətdə özünüdərkin yaxşıya və yamana yönəlikliyi açılmışdı. Yaxşı həzz verəndir və yunanlar bunu "hedoniklik" adlandırmışdılar. Yaman, pis isə uyğun olaraq əzab verəndir. Yunan müdrikləri bu əzabdan yayınmağın yollarını aramışdılar. Sonrakı çağlarda, xüsusilə, milli özünüdərk çağlarında yunan ənənəsi əsasında milli özünüdərk "bizdə nə pisdir, nə yaxşıdır?", "bizə nə pisdir, nə yaxşıdır?", yəni "biz nədən həzz alırıq, nədən əzab çəkirik?" suallarına cavab axtardı (sözsüz, milli özünüdərkin başqa sualları da olmuşdur ki, onlardan sonra yazacağıq).

Milli özünüdərkin sadaladığımız suallara cavabı heç də "muşğulat" üçün olmayıb. Cavablar nəyi islah etmək, nəyi qorumaq, nəyi aradan götürmək məsələlərini də qoyurdu. Onu da deyək ki, bu məsələlər üzrə edilənlər bəzən, xüsusilə, "proyekt", "layihə" sözlərinin populyar olduğu indiki çağımızdı, dövlət proqramı şəklində olub. Ancaq bəzən də olub ki, həyat özü transformasiyalara, islahatlara gətirib çıxarıb. Birinci varianta örnək kimi Erix Fromm yazır ki, cəmiyyət və mədəniyyət elə situasiyalar yaradır ki, adi adamlar onun məqsədlərini gerçəkləşdirən enerjidən istifadə etməli olurlar. İbtidai icma insanları talamalar və yağmalamalar əsasında dolandıqları üçün döyüşçü xarakterində olmalıydılar. Deməli, bu adamlarda savaş, öldürmə, yağmalama qızğınlığını artırmaq gərək idi. Ona görə də həmin toplumda qızğınlığı artıran institutlar, ideallar öz işini görürdü (Frommun bu fikri ilə bağlı "Kitabi-Dədə Qorqud"da oğlunun "baş kəsməməsindən" kədərlənən, utanan Dirsə xanı göstərmək olar).

Fromma görə, belə cəmyyətlərdən fərqli olaraq əkinçi toplumlada insanlar zorakılığa yox, əməkdaşlığa meyl edirlər. Feodalizmdə səxavət, əliaçıqlıq kultu önə çıxmışdı. Burjua dövründə isə yığımcıllıq əsas enerji idi. Fromm yazır ki, yeni çağda istehlakçılıq energetik güc qazanır. Müasir istehlakçı cəmiyyətlər olmasaydı, sənaye də gəlişməzdi.

Sonra Fromm ümumiləşdirmə aparır: cəmiyyətə lazım olan yönümdə insanları enerjili etmək üçün mədəniyyət öz işini görür. O, tələbatı olan enerjiyə uyğun xarakter tipini yaradır, sonra isə həmin xarakteri üstün etməklə, sevdirməklə, öyməklə onu sosial xaratkerə çevirir və beləcə, tirajlaşdırır. Bu işdə dinin, ədəbiyyatın, hətta zarafatların da böyük rolu olur (19).

Cəmiyyətdə baş verən şüursuz islahatlara yenə Frommdan material gətirək.

O yazır ki, Birinci Dünya Savaşından öncə almanların özlərini rahat duymasında ailə fenomeni önəmli idi. Müharibədən sonra isə gənclər arasında baş verən şüur dəyişmələri prosesində atanın avtoriteti aşağı düşdü. Gənclər artıq davranışlarında "atam nə deyər?" məsələsini düşünmürdülər. Ata nüfuzunun aşağı düşməsinin çox səbəbləri vardı, onlardan biri də o idi ki, monarxiya və hakimiyyət simvolları urvatdan düşmüş, bununla da ata zəhminin dağılmasına öz payını vermişdi (20). Erix Fromm bu fikrinin arxasınca o biri önəmli məsələni qoyur. Həmin məsələ isə budur ki, demokratiya və bazar iqtisadiyyatı avtoritar ailə modelini sevmir (21). Ona görə də demokratikləşmə və iqtisadi inkişafın Qərb tipi bir çox Avropa ölkələrində avtoritar ailə modelinə dağıdıcı zərbə vurdu.

Sonda qısa şəkildə bu bölmə boyu milli özünüdərklə bağlı yığdığımız əsas metodoloji ideyaları, paradiqmaları sadalayaq. Milli özünüdərkin bir istiqaməti milləti rəqib, qarşı və hətta düşmən tərəf üzərində qələbə ilə və ya mətanətlə təmin etməkdir. Bu, dünyada millətlər arasında olan konfliktlər, qarşılıqlı təhlükələr münasibətlərinin doğurduğu qaçılmaz tələbdir. Avropada ilk dəfə Sofistlər şəxsi özünüdərki şəxsi aqressivliyin arsenalını yaratmağa sərf etmişdi. Ancaq bu sofist tapıntısının millətlərarası münasibətlərə ekstrapolyasiyası çətin deyildi və Yeni çağda bu ekstrapolyasiya baş verdi. Hərçənd özünüdərkin döyüş, savaş aqressivliyinə cəlb olunmasının Təbiət üzərində qələbəyə yönəlik mədəniyyət faktına çevrilməsi sonralar elmi və texnikanı gəlişdirməklə elə bir situasiya yaratdı ki, Avropa mədəniyyətini ekoloji təhlükədə suçlayan ittihamlar güclü arqumentlər qazandılar.

Özünüdərkin savaş modelində qələbəyə cəlb olunmasının başqa effektli variantını Sokrat verdi. Bu filosof və onun davamçıları "özünübilimi" "mən və başqaları" dixatomiyasının strukturunda kənar aqressivlikdən, başqalarının təhlükəsindən qorunmaq vasitəsinə çevirə bildilər. Ətrafla gərginliyin, konfliktli vəziyyət şəraiti təkcə fərdlər qatında yox, millətlər münasibəti qatında da mövcuddur. Deyə

bilərik ki, Sokrat və Sokratçılar bu planda milli özünüdərki məqsədi və vəzifələri ilə bağlı müəyyən metodoloji ideyaya gəlib çıxmaq üçün əsas verdilər: millətlərin özünübilim çətin və ağır mühitdə düzgün oriyentirləri tapmaq üçündür.

Beləcə, Sofistlərin, Sokratçıların, Epikurçuların, Stoiklərin fərdi özünüdərk əsasında tapdıqları fərdlə ətraf arasında konfliktləri üzə çıxaranda millətlə ətrafdakıların konfliktlərinə də nəzəriyyədə gözləri açdı. Eyni zamanda fərdi planda presedentlər verməklə millətlər qatında da effektli davranış modellərini düşünüb tapmaq üçün təməllər qoydu.

Antik Yunanıstanda Demokritin "insan mikrokosm" adlandırması milli özünübilimin yönəldiyi "obyektin" mürəkkəbliyini açdı. Doğrudan da bütün XX yüzildə milli özünüdərki problem kimi qoyub onunla məşğul olanlara aydın oldu ki, millətin mənəvi dünyası, ruhu kosmik biçimlərə, sonsuzluqlara malikdir. Eyni zamanda, insanın həm xarici, həm də daxili dünyasının kiçik kosmos adlandırılması yeni və effektli termində Dionisi başlanğıcının nəzərdə tutulması idi. Nitsşedən sonra qəbul olunmuşdu ki, Dionisi kultu və bayramları insanın psixi-emosional dünyasının sonsuzluğuna bağlanmış qapıları açmağa xidmət edirdi. "Mikrokosm" termini isə bu sonsuzluğun strukturları olmasını əyan edirdi. Sonralar milli özünüdərklər epoxasında fərdə aid olan bu fikirlər millətə də ekstrapolyasiya etdi. Milli özünübilim sonsuz psixo-somatik faktlarla işləməyə məhkum oldu.

Kiniklərdə, Kirenaiklərdə, Epikurda "mən"in həzz məsələsinin qoyuluşu mədəniyyətlərdə və millətlərdə analoji məsələlərə də yol açdı. Beləcə, millətlərin öyrənilməsi işinə onların nələri bəyənib nələrdən həzz almalı sualını da qoydu. Xüsusi bir istiqamət kimi konkret millətin bəyəndikləri dəyərlərin, sevdiyi əyləncələrin və s. kodifikasiya edilməsi ortaya çıxdı. Bütün bunlar isə milli özünübilimlə bağlı islahat işlərinə konkret hədəflər verdi. Antik mədəniyyətdən qoyulmuş həzz məsələsi XX əsrin əvvəllərində Freydin "həzz və gerçəklik" ideyalarına təkan verdi. Sonralar isə milli özünüdərkdən islahatlar üçün istifadə olunanda həzzlə bağlı hansı xasiyyətdən, hansı meyllərdən təmizlənmək, hansı xasiyyətləri stimullaşdırmaq reformis düşüncələri ortaya çıxdı. "Bizdə nə pisdir, nə yaxşıdır?", "bizə nə pisdir, nə yaxşıdır?", yəni "biz nədən həzz alırıq, nədən əzab çəkirik?" suallarına cavab axtarılması XİX-XX və hətta XXİ əsrlərdə bir çox millətləri düşündürən suallar oldu.

**Nigar ƏFƏNDİYEVA**

## Açıqlamalar və ədəbiyyat


1. Bax: Гегель: Энциклопедия философских наук. Наука логики, т.1. М. 1974, с.129.
2. Bax: История античной психологии. http://azps.ru/articles/hist/hist2.html
3. Bax: Лосев А.Ф. История античной эстетики. Софисты, Сократ, Платон. М. 1969, с. 96-97; И.М. Нахов. Философия киников. М. 1982, с.70-73.
4. Bax: Лаэртский Диоген. О жизни, учениях и изречениях знаментитых философов. М. 1979, с. 249.
5. Bax: Лосев А.Ф. История античной эстетики. Софисты, Сократ, Платон, с. 110-111, 122-123.
6. Лосев А.Ф. История античной эстетики. Ранний элиниз. М. 1979, с. 384.
7. Yenə orada, s. 130.
8. Рассел Бертран. История философии. http://www.philosophy.ru/library/russell/01/02.html
9. Yenə orada.
10. Bax: Sartre Jean-Paul. Anti-semite and Jew. New-York.: Schocken Books, 1995,, p. 61-62; Альфред Фулльe. Психология французского народа. По изданию: Фулльe А. "Психология французского народа", издательство Ф. Павленкова, СПб., 1899 г., http://www.lib.kiev.ua/books/3/472n1.html
11. Лосев А.Ф. История античной эстетики. Аристотель и поздняя классика. М. 1975, с.278.
12. Bax: Plotinus. The Enneads.Penguib Books, p. 169, 252.
13. Feyerbaxda "Mən" və "Sən" ilişgiləri xristian mentalitetini anlamağa cəlb olunur (bax: Фейербах Людвиг. Сущность христианства. М. 1965, с. 98-99, 114). Məşhur yəhudi filosofu Buber məhz "Mən - Sən" və "Mən - O" spekulyasiyasında ekzistensialist problemləri duydurmağa çalışmışdı (bax: Бубер Мартин. Я и ТЫ. - В кн.: Бубер М. Два образа веры. М., 1995, с. 2-3).
14. Марков Б.В. Другая Европа http://anthropologia.spbu.ru/ru/texts/markov/aneu.htmlaa
15. Bax: Антология мировой философии, Эмпедокл; Джохадзе Д.В. Оснавные этапы развития античной философии. М. 1977, с. 43-49.
16. Bax: Фрейд Зигмунд. "Я" и "Оно". Труды разных лет, кн.1, Тбилиси.: Мерани, 1991, с. 71-138, с. 99-100.
17. Bax: Фрейд Зигмунд. Основные психологические теории в психоанализе. Госизд.во. Москва - 1923 - Петроград, с. 87.
18. Azərbaycanda, əslində, hələ ki israfçılığa qarşı kampaniya aparılmayıb, hərçənd bu haqda bəzən adda-budda TV çıxışları, qəzet məqalələri olub. Maraqlıdır ki, istənilsə, israfçılığı pisləmək üçün Qurani-kərimdən dəstəkləyici ayə də tapmaq olar. Ancaq bizim mədəniyyətdə simicliyin, xəsisliyin çox mənfi yük daşıması israfçılığa qarşı fəallığı xeyli zəiflədir. Halbuki indi Sinqapurun keçmiş Baş naziri Li Kuandan gətirəcəyimiz material iqtisadi çiçəklənmək üçün səxavətli olmamağın önəmini açır. Bu parlaq şəxs memuarında yazır ki, Jiskar De'Esten məndən Sinqapur möcüzəsinin səbəbini soruşanda demişdim: səbəb bizim adamların qənaətcilliyində, qara günə pul yığmalarında, etnik qruplarımız arasında uyarlığın olmasında və sinqapurluların qoyulmuş məqsədə can atmaq məsələsində adətkarlıqlarındadır. Bax: Ли Куан Ю. Сингапурская история: из "третьего мира" - в "первый" (1965 - 2000).
20. Bax: Фромм Э. - Бегство от свободы http://kiev.philosophy.ru/library/fromm/02/0.htm
21. Avtoritar ailə modelinin tənqidi ilə bağlı bax: Райх Вилгелм. Сексуальная революция. Санкт-Петербург-М. 1997, с. 113.